# Why Are Deadly Industries Promoted?

Analoq.az
Bizim analoqumuz yoxdur !
27.02.2016 **21:52:23**

**Dünyada ən çox qan tökən sənaye sahələrini saymağa başlasaq, ilk növbədə silah, ikinci növbədə isə narkotik gələcək.Həqiqətən də silah sənayesi 20-ci əsrdə milyonlarla insanın ölümünə səbəb olub. Yeni texnologiyalar silahları hər gün daha da öldürücü hala gətirir.Bu sahəyə yatırılan trilyonlarla dollar pul insanların ölməsinə, şəhərlərin dağıdılmasına səbəb olur.**

Narkotik istehsalçısından istehlakçısına qədər hər mərhələdə ölüm gətirir. Narkotik mafiyaları bəzən ölkələrə nəzarət edəcək səviyyəyə gəlib çatırlar.

Cənubi Amerika ölkələrində hər il on minlərlə insan narkotik müharibələrində həyatını itirir.Bu rəqəm terror hücumlarında həlak olanların sayından qat-qat çoxdur.

Bu sənayelərdən sonra üçüncü yerdə "qaranlıq və hiyləgər" sahə olan tütün sənayesi gəlir... Maraqlı reklamlarına, rəngli qutularına baxmayaraq, bu sahə də ən az silah və narkotik qədər öldürücüdür.

Tütün 17-ci əsrdən etibarən müstəmləkəçi və imperialist dövlətlərin ən böyük gəlir mənbələrindən biri olub.İstehsalçısından istehlakçısına kimi milyonlarla insan bu səbəbdən həyatını itirib. Tütün Avropaya və Osmanlı İmperiyasına ilk dəfə ingilis tacirlər tərəfindən tanıdılıb. 17, 18, 19 və hətta 20-ci əsrdə ABŞ başda olmaqla bir çox İngiltərə müstəmləkəsi olan ölkələr dünyanı tütünlə təmin etmək üçün çalışıblar.

Misir, Avstraliya, Yamayka, Nigeriya, Surinam, Songea, Zimbabve, Kalimantan, Trinidad və Tobaqo, həmçinin o dövrdə İngiltərənin təsiri altında olan İran da tütün istehsalının mərkəzinə çevrilib.

Müstəmləkələrdə istehsal olunan tütün ucuz qiymətə alınıb başqa ölkələrdə baha qiymətə satılırdı. Bu qaranlıq dövrdə Karib hövzəsindən Uzaq Şərqə qədər dünya əhalisinin böyük əksəriyyəti tütün istehsalçısı və istehlakçısı olaraq bu dövriyyənin bir hissəsi olmuşdu.

Amerika tütün sənayesi qul ticarəti ilə də əlaqəli idi. İngilis tacirlər Afrikada yerli krallardan silah qarşılığında kölə alırdılar. Gəmilərlə Amerikaya aparılan bu qullar orada tütün və şəkər kimi xammallarla dəyişdirilirdi.

Qullar üzərindən maliyyələşən "Atlantik köləlik ticarəti"nə 200 il ərzində İngiltərə rəhbərlik edib. Həmin dövrdə hər dindən, millətdən, nəsildən milyonlarla afrikalı insan qul edilib.

Qərbi Afrika sahillərində qulların gəmi gözləyərkən yığıla bilmələri üçün anbarlar qurulmuşdu.10 milyon afrikalı yeni qitəyə qul kimi daşınmış,10 milyonu da həmin vaxt həyatını itirmişdi. Həmin dövrün məşhur İngiltərə donanması bu ticarətlə maliyyələşirdi.

Tütün ticarətinin təsiri o dövrdən hazırkı günədək davam edir. Bütün dünya bu öldürücü sahənin təsiri altındadır. 2014-cü ildə istehlak edilən 5,6 trilyon siqaret üçün istehlakçılar 750 milyard dollar pul xərcləyib. Bu rəqəm 170 ölkənin ümumi daxili məhsulunun cəmindən çoxdur...

Hazırda təxminən 1,2 milyard insan siqaret aludəçisidir. 2025-ci ildə bu rəqəmin 1,65 milyard olacağı hesablanıb. Bu insanların 80%-i orta və aşağı gəlirli insanlardır.

Yaponiyada ildə adambaşına 1.800, ABŞ-da isə 1.000 siqaret istehlak edilir. Hər il 6 milyon insan siqaretdən yaranan xəstəliklərdən həyatını itirir. Əgər dünya millətləri kütləvi olaraq hərəkətə keçməsə, 21-ci əsrdə 1 milyard insan siqaretin təsiri nəticəsində həyatını itirəcək.

Financed by slave trafficking, the "**Atlantic Trade**" remained under a British monopoly for 200 years. While 10 million Africans were transported to the new continent as slaves, another 10 million lost their lives during this period. During the height of the slave trade, warehouses were constructed on the West African shores, where slaves were piled in while waiting for ships to arrive. In this period, Africans of all religions, all nations and tribes were enslaved by the millions. The famous British Navy of the era was financed through the Atlantic slave trade.

*The news portal based in **Azerbaijan**, **Analoq.az**, publishes **Harun Yahya articles.***

http://analoq.az/manset/5115-siqaret-haqqinda-heqiqetlerolume-sebeb-olan-saheler-niye-teshviq-edilir.html

http://www.harunyahya.com/en/Makaleler/241983/Why-Are-Deadly-Industries-Promoted

http://www.harunyahya.org/tr/Articles/241982/Sigara-Hakkindaki-Gercekler-Olumcul-sektorler-neden-tesvik-ediliyor

https://www.harunyahya.info/en/articles/why-are-deadly-industries-promoted-51383